# Ah, bu uzun sevda yolu...

*Yenə o bağ olaydı, yenə yığışaraq siz,*
*O bağa gələydiniz*
*Biz də muradımızca fələkdən kam alaydıq*
*Sizə qonşu olaydıq*
*Arzuya bax, sevgilim, tellərindən incəmi?*
*Söylə ürəyincəmi?*

Sözlərin dadlı düzümünə, bulaq gözündən süzülüb gələn ahənginə bax. İnana bilmirsən, gənc bir qələmin gücünə heyran qalırsan. Nəfəsi isti, həvəsi çılğın, qəlbi zərif, rübabı incə şair - Mikayıl Müşfiq. Yazdığı hər sətir nəğmə idi, ürəyin sarı siminə elə toxunurdu ki... Oxuyan da, dinləyən də vəcdə gəlirdi.

Abşeron bağlarını, dənizi, qumsal çimərlikləri çox sevirdi. Uzun yay günlərində Xəzərin sahillərində səhərin alatoranında, axşamın qürubunda saatlarla xəyala dalıb şeirlər yazardı. Hərdən, boş vaxtlarında tarı sinəsinə sıxardı, tarzən Qurban Primovla dostluq da edərdi. Bir dəfə yenə tarzən onlarda olanda şair tara həsr etdiyi "Nə deməkdir" adlı şeirini oxuyur. Bundan təsirlənən tarzən "Yetim segahı" səsləndirir. Hamımızın sevdiyi "Oxu tar!" şeirini də Müşfiq elə həmin gün muğamın sədaları altında yazır. Bu o günlər idi ki, Azərbaycanda tarın qadağan edilməsi ilə bağlı fikirlər səsləndirilirdi...

*Oxu, tar, oxu tar!..*
*Səsindən ən lətif şeirlər dinləyim.*
*Oxu, tar, bir qədər!..*
*Nəğməni su kimi alışan*
*ruhuma çiləyim.*
*Oxu, tar!*
*Səni kim unudar?*

Xalqımızın nakam şairi Mikayıl Müşfiq 1908-ci il iyunun 5-də Bakıda ziyalı ailəsində dünyaya göz açıb. Əslən Xızı rayonundandır. İbtidai təhsilini inqilabdan əvvəl rus-tatar məktəbində almışdı. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Bakı darülmüəllimində və 12 saylı ikinci dərəcəli məktəbdə oxumuş, Azərbaycan Dövlət Darülfünunun dil və ədəbiyyat fakültəsini bitirmişdi. Əmək fəaliyyətinə pedaqoq kimi başlamışdı. Bakının orta məktəblərində 7 il müəllimlik etmişdi. Son iş yeri 18 saylı Bakı şəhər orta məktəbi olmuşdu (bu məktəb indi onun adını daşıyır).

Ötən əsrin birinci yarısının sənətkarları nəslinə mənsub olan bu istedadlı şair çox qısa bir ömür yaşamasına baxmayaraq, Azərbaycan poeziyasının inkişafında, onun yeni mövzu, bəşəri məzmunla zənginləşməsində böyük rol oynamışdır.

Müşfiq bədii yaradıcılığa çox gənc yaşlarından başlamış, "Bu gün" adlı ilk şeiri 1926-cı ildə "Gənc işçi" qəzetində çap edilmişdi. Qısa müddətli yaradıcılıq dövründə şairin on şeirlər kitabı işıq üzü görmüşdü. O, hər şeydən əvvəl, lirik şairdir, dünyanı, həyat və cəmiyyət hadisələrini dərin bir şair qəlbi ilə duyur və bunları öz şəxsi hiss və həyəcanları ilə birlikdə təqdim edir:

*Hər tərəfdə qurulan toy-büsat mənəm,*
*Ulduzlarla edən ixtilat mənəm.*
*Mənim azadlığım qucağa sığmaz,*
*Yer mənəm, göy mənəm, kainat mənəm.*

Müşfiq lirikasının əsas aparıcı xətti insan və təbiət, insan və həyat, insan və gözəllik münasibətləridir. Şair öz şeirlərində bunları həmişə ayrılmaz bir tərkib hissəsi kimi vəhdətdə götürür, bir bütöv halında təqdim edir. İnsan həyatın yaradıcısı, qurucusu, onu gözəlləşdirən varlıqdır. Həyat və gözəllik isə insanı kamilləşdirən, mənəvi yüksəlişə aparan yoldur.

Onun şeirlərinin hər bəndi, hər misrası insanın qəlbinin dərinliklərinə nüfuz edir, könülləri oxşayır, insanları yüksək hisslər, amallar aləminə aparır. Bu lirika bu gün də aktualdır, sevilən nümunələr, sevilən şeirlərdir.

Böyük şairimiz Hüseyn Cavid Müşfiqi "gələcək şeirimizin tacidarı" kimi öyür, Səməd Vurğun isə "məni poeziya sahəsində yalnız Müşfiq keçəcək" deyirdi. Bu qədər sevilərkən, Müşfiq hansı günahın sahibi idi ki, donosçular onu ləkələmək, məhv etmək məqsədilə dəridən-qabıqdan çıxır, iclaslarda onu haqsız yerə tənqid edir, böhtan atırdılar. Yazdıqları donosların mürəkkəbi quruma-



mış yenidən qələmə sarılırdılar. Onlar yaxşı bilirdilər ki, yazdıqları donoslar, Müşfiqin əleyhinə yönələn ifadələr gec-tez böyük şairi ölümün pəncəsinə verəcək. Mənfur repressiya maşını isə artıq hərəkətə gəlmişdi, millətin öncülləri, düşünən beyinləri ölüm təhlükəsi ilə üz-üzə qalmışdılar.

Beləliklə, Xalq Daxili İşlər Komissarlığının əlinə özümüzünkülər qədərindən artıq dəstavüz vermişdilər. Repressiya maşınının sükanı arxasında duran Dövlət Təhlükəsizliyi İdarəsində isə heç kim Müşfiqin yaradıcılığı ilə maraqlanmırdı. Əks halda anlayardılar ki, "Ölkəm" şeirində:

*Dünyamızı seyr etdim min dürlü həvəslərlə,*
*Gördüm coşuyor dillər pək nəşəli səslərlə.*
*Pək şad olaraq güldüm abad olan ölkəmdə,*
*Qəmlərdən, ələmlərdən azad olan ölkəmdə.*

- yazan Müşfiq "əks-inqilabçı", "faşist ovqatlı insan", "qudurğan millətçi", "alçaq xəyanətkar", "Vətən xaini" ola bilməz!

Ə.Əkbər "Kommunist" qəzetinin 1937-ci il 20 iyun tarixli sayında "Ədəbiyyatda düşmən qalıqları axıradək ifşa edilməli" sərlövhəli məqaləsində yazırdı: "Necə ola bilər ki, Əhməd Cavadın, Hüseyn Cavidin yuvasından çıxmış riyakar, əclaf Müşfiq ittifaqın plenumunu və "Ədəbiyyat qəzeti"ni öz tribunasına çevirmişdir. Necə ola bilmişdir ki, Müşfiq kimi xain düşmən sovet yazıçıları ittifaqı rəhbərləri S.Şamilov və S.Vurğunun qanadı altında son günədək öz kontrevolyusion pozucu işlərini yeritməyə imkan tapmışdır. Ədəbiyyatda xalq düşmənlərinin bütün qalıqları axıradək ifşa olunmalı, böyük sosializm quruluşumuza qarşı azğıncasına kin və ədavət bəsləyən müsavatçı və trotskist quduzlar yox edilməlidir".

Qara buludlar isə yaxınlaşırdı. Mətbuatda Müşfiq haqqında təhqir, böhtan dolu kəskin tənqidi məqalələrin sayı artırdı. Safqəlbli şair isə bütün bunlardan çox mütəəssir olurdu. Yazıçıların növbəti plenumunda M.Müşfiqə "əks-inqilabçı" damğası vuruldu. 1937-ci il iyunun 4-də evində həbs etdilər. O, əks-inqilabi milli təşkilatın üzvü, sovet hakimiyyətinə qarşı silahlı üsyana hazırlıqdan xəbərdar olmaqda ittiham edilirdi.

Həbsdən qabaqkı axşam oxucuları ilə görüşdən gec qayıdan şair evdə onu gözləyən Dilbərin yanına tələsdiyindən yaxınlıqda dayanan qara maşına fikir verməmişdi. Müşfiq mənzilinə daxil olduqdan sonra qapının zəngi çalındı... Gələn adamlar onu heç yaxınları ilə vidalaşmağa da qoymadılar.

1938-ci il yanvarın 5-də SSRİ Ali Məhkəməsinin hərbi səhra kollegiyasının 20 dəqiqəlik məhkəmə iclası M.Müşfiqin barəsində güllələnmə qərarı verdi. Hökm bir neçə saatdan sonra - yanvarın 6-na keçən gecə icra olundu. Deyirlər ki, həyatının ən son saatlarına qədər o, ölümünə inanmayıb. Həyat yoldaşı Dilbər xanım xatırlayır ki, onların həbsxanada son görüşündə Müşfiq kədərli halda ölümqabağı hisslərini gizlətməyə çalışaraq deyib: "Sən narahat olma. Əvvəl-axır, tez ya gec hər şey aydınlaşacaq. Biləcəksiniz ki, bizim heç nədə təqsirimiz olmayıb".

Təxminən 20 il keçəndən sonra ölkə şəxsiyyətə pərəstişin dəhşətindən özünə gəldi və Azərbaycanın məşhur yazıçıları M.Müşfiqin işinə yenidən baxılması barədə müraciət etdilər. 1956-cı il mayın 23-də SSRİ Ali Məhkəməsinin hərbi kollegiyasının qərarına əsasən Mikayıl Əldülqadir oğlu İsmayılzadə bəraət qazandı.

Əlbəttə, repressiya tufanının apardığı yazıçı və şairlərdən heç kəs silahlı üsyan hazırlamamışdı, lakin böyük həqiqət ondadır ki, onlar Azərbaycan Xalq Cümhuriyyətinin qısa dövründə azadlığın sevincini dadmışdılar və Vətənin müstəqilliyini arzulayırdılar...

Müşfiqin yanında çox cılız, aciz, üzgün, solğun görünəcəklərini duyanlar bu nurun işığında görünməz olacaqlarından qorxurdular. Elə buna görə də onu, bu nəğməkar ürəyi susdurmağa çalışdılar. Onlar təkcə Müşfiqin özünə yox, həyat işığı görməmiş neçə-neçə şeirlərinin qətlinə fərman verdilər...

Onun şeirlərində yüksək həyat eşqi, sevginin yenilməzliyi, möhtəşəmliyi insan ürəyində məhrəmanə hisslər yaradır. "Həyat sevgisi" şeirində olduğu kimi:

*Ah, mən gündən-günə bu gözəlləşən*
*İşıqlı dünyadan necə əl çəkim?*
*Bu yerlə çarpışan, göylə əlləşən*
*Dostdan, aşinadan necə əl çəkim?*

Həyatdan kam almayan 30 yaşlı şairin müdrikcəsinə söylədiyi bu misralar insana sakit-sakit pıçıldayır: həyatı sev, sənə verilən azmüddətli ömür payını ləyaqətlə yaşa, həyatın gözəlliklərindən bəhrələn, onu daha da gözəlləşdir...

Onu cismən yox etdilər, həyatının çiçəkləndiyi vaxtda sevməyə, sevilməyə həsrət qoydular, şair ruhunun qarşısında tələ qurdular, sədd çəkdilər... Mənən həyatdan apara bilmədilər. Özü ilə bitib tükənməyən sevgi apardı, illər, qərinələr, əsrlər keçsə də ölməyəcək sevgi!..

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**